*“Metafizika” Journal*
*Vol 9, issue 2, serial 38, 2026. pp.468-481*

*AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UDC:** 1:001.92
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 485
10.33864/2617-751X.2026.v9.i2.468-481

# PSYCHOLOGICAL ANALYSIS OF ISLAMOPHOBIA AS A PROBLEM AND A PERSPECTIVE FROM THE PRISM OF MULTICULTURAL VALUES

**Faguma Farajova***

**Abstract.** The article provides a multidimensional analysis of Islamophobia, which stands as one of the most pressing socio-psychological challenges of the contemporary era. The study examines the root causes of Islamophobia within historical, theological, political, and economic contexts, with a particular focus on the underlying psychological mechanisms. Drawing on the “classical conditioning” theory of behavioral psychology, the article elucidates how the systematic association of Islam with terrorism in the media fosters negative stereotypes within the collective consciousness.

A significant portion of the research is dedicated to the role of the Azerbaijani model of multiculturalism in countering Islamophobia. The author evaluates Azerbaijan’s long-standing traditions of tolerance as an effective paradigm and alternative to global Islamophobic trends. Furthermore, within the context of the Karabakh conflict, the systematic destruction of Muslim religious and cultural heritage is analyzed as a manifestation of “vandalist Islamophobia.” The study concludes by emphasizing the imperative for inter-civilizational dialogue and academic enlightenment as essential tools for preventing Islamophobia and ensuring global social cohesion.

**Keywords:** Islamophobia, multiculturalism, Azerbaijanian model, social psychology, religious tolerance, cultural vandalism

---

* College of Industry and Technology under ASOIU, teacher; Baku, Azerbaijan
E-mail: faquma.farajova@gmail.com
https://orcid.org/0009-0006-6492-4394

**To cite this article:** Farajova, F. [2026]. PSYCHOLOGICAL ANALYSIS OF ISLAMOPHOBIA AS A PROBLEM AND A PERSPECTIVE FROM THE PRISM OF MULTICULTURAL VALUES. *“Metafizika” journal, 9*(2), pp.468-481.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.468-481
***Article history:***
**Received**: 17.02.2026 **Revised**: 16.03.2026 **Accepted**: 04.05.2026 **Published**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 1:001.92
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 485
10.33864/2617-751X.2026.v9.i2.468-481

# ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ИСЛАМОФОБИИ КАК ПРОБЛЕМЫ И ВЗГЛЯД ЧЕРЕЗ ПРИЗМУ МУЛЬТИКУЛЬТУРНЫХ ЦЕННОСТЕЙ

**Фагума Фараджова***

**Абстракт.** В статье анализируется феномен исламофобии, являющийся одной из наиболее актуальных социопсихологических проблем современности, в многомерной перспективе. Исследуются причины возникновения исламофобии в контексте исторических, теологических, политических и экономических факторов, при этом особое внимание уделяется психологическим механизмам данного процесса. На основе теории «классического обусловливания» бихевиористской психологии объясняются негативные стереотипы в массовом сознании, возникающие в результате систематической ассоциативной связи понятий «ислам» и «террор» в средствах массовой информации.

Важная часть статьи посвящена роли азербайджанской модели мульти-культурализма в борьбе с исламофобией. Автор рассматривает традиции толерантности в Азербайджане как эффективную альтернативу глобальным исламофобским тенденциям. В то же время, на примере Карабахского конфликта, факты уничтожения мусульманского религиозно-культурного наследия анализируются как проявление «вандальной исламофобии». В заключение подчеркивается необходимость межцивилизационного диалога и академического просвещения для предотвращения исламофобии и укрепления социальной солидарности.

**Ключевые слова:** Исламофобия, мультикультурализм, Азербайджанская модель, социальная психология, гелигиозная толерантность, kультурный вандализм

* Преподаватель Колледжа Промышленности и Технологий при А Г У Н П; Баку, Азербайджан
E-mail: faquma.farajova@gmail.com
https://orcid.org/0009-0006-6492-4394

**Цитировать статью:** Фараджова, Ф. [2026]. ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ИСЛАМОФОБИИ КАК ПРОБЛЕМЫ И ВЗГЛЯД ЧЕРЕЗ ПРИЗМУ МУЛЬТИКУЛЬТУРНЫХ ЦЕННОСТЕЙ. *Журнал «Metafizika»*, *9*(2), с.468-481.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.468-481
***История статьи:***
**Поступила**: 17.02.2026 **Переработана**: 16.03.2026 **Принята**: 04.05.2026 **Опубликована**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 1:001.92
**KBT:** 63.3(2)6-6
**MJ №** 485
10.33864/2617-751X.2026.v9.i2.468-481

# İSLAMOFOBİYANIN PSİXOLOJİ PROBLEM KİMİ TƏHLİLİ VƏ MULTİKULTURAL DƏYƏRLƏR PRİZMASINDAN BAXIŞ

**Fəqumə Fərəcova***

**Abstrakt.** Məqalədə müasir dövrdə ən aktual sosial-psixoloji problemlərdən biri olan islamofobiya fenomeni çoxölçülü perspektivdən təhlil edilir. İslamofobiyanın yaranma səbəbləri tarixi, teoloji, siyasi və iqtisadi amillər kontekstində araşdırılır, bu prosesin psixoloji mexanizmlərinə isə xüsusi diqqət yetirilir. Biheviorist psixologiyanın klassik şərtlənmə nəzəriyyəsinə əsaslanaraq, kütləvi informasiya vasitələrində “islam” və “terror” anlayışlarının sistemli şəkildə assosiativ əlaqələndirilməsi nəticəsində ictimai şüurda formalaşan mənfi stereotiplər izah olunur.

Məqalənin mühüm hissəsi islamofobiya ilə mübarizədə Azərbaycan multikulturalizm modelinin roluna həsr edilmişdir. Müəllif Azərbaycanda mövcud tolerantlıq ənənələrini qlobal islamofob meyllərə qarşı effektiv alternativ kimi qiymətləndirir. Eyni zamanda, Qarabağ münaqişəsi nümunəsində müsəlman dini-mədəni irsinin məhv edilməsi faktları “vandallıq xarakterli islamofobiya”nın təzahürü kimi təhlil edilir. Nəticə olaraq, islamofobiyanın qarşısının alınması və sosial həmrəyliyin möhkəmləndirilməsi məqsədilə sivilizasiyalararası dialoqun və akademik maarifləndirmənin zəruriliyi vurğulanır.

**Açar sözlər:** islamofobiya, multikulturalizm, Azərbaycan modeli, sosial psixologiya, dini tolerantlıq, mədəni vandalizm

* ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci, müəllim; Bakı, Azərbaycan
E-mail: faquma.farajova@gmail.com
https://orcid.org/0009-0006-6492-4394
**Məqaləyə istinad:** Fərəcova, F. [2026]. İSLAMOFOBİYANIN PSİXOLOJİ PROBLEM KİMİ TƏHLİLİ VƏ MULTİKULTURAL DƏYƏRLƏR PRİZMASINDAN BAXIŞ. *“Metafizika” jurnalı, 9*(2), səh.468-481.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.468-481
**Məqalənin tarixçəsi:**
**Daxil olub**: 17.02.2026 **Yenidən baxılıb**: 16.03.2026 **Təsdiqlənib**: 04.05.2026 **Dərc olunub**: 15.06.2026
**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Müasir qloballaşma şəraitində ictimai rəyin formalaşdırılması prosesində siyasi, iqtisadi və ideoloji maraqlar mühüm rol oynayır. Yazılı, vizual və audio media vasitələri, eləcə də müxtəlif ictimai-siyasi aktorlar tərəfindən kütlələr müəyyən istiqamətlərə yönləndirilir. Bu prosesdə strateji elm sahəsi olan psixologiyanın təsir mexanizmlərindən geniş istifadə edilir. Xüsusilə fərdin yaşamaq və təhlükəsizlik kimi fundamental ehtiyacları ilə müəyyən dini və mədəni kimliklərin assosiativ şəkildə əlaqələndirilməsi sosial şərtlənmə prosesini gücləndirir və mənfi stereotiplərin formalaşmasına zəmin yaradır.

Bu kontekstdə islamofobiya tarixi, teoloji, siyasi və sosial amillərlə şərtlənən çoxölçülü fenomen kimi çıxış edir. Xüsusilə XXI əsrdə bəzi cəmiyyətlərdə İslam və müsəlman anlayışlarının terror və zorakılıq kimi destruktiv kateqoriyalarla sistemli şəkildə əlaqələndirilməsi nəticəsində fərdlərdə qorxu, qəzəb və təhlükə qavrayışı formalaşdırılır. Bu isə klassik şərtlənmə mexanizmləri vasitəsilə islamofobik münasibətlərin sosial şüurda möhkəmlənməsinə səbəb olur.

Belə bir qlobal mənzərə fonunda Azərbaycan Respublikası multikultural dəyərlərə əsaslanan ictimai modeli ilə fərqlənir. Tarixən müxtəlif din və mədəniyyətlərin dinc yanaşı yaşadığı bir məkan olan Azərbaycan tolerantlıq ənənələri ilə seçilmişdir. Dövlət səviyyəsində multikulturalizm siyasətinin həyata keçirilməsi və dini müxtəlifliyə hörmət prinsiplərinin qorunması islamofobiya kimi ayrı-seçkilik formalarına qarşı mühüm ideoloji və sosial sipər rolunu oynayır.

Bu baxımdan islamofobiya fenomeninin psixoloji təhlili yalnız qlobal proseslərin izahı baxımından deyil, həm də Azərbaycanın multikultural dəyərlərinin qorunması, sosial həmrəyliyin və ictimai təhlükəsizliyin təmin olunması kontekstində xüsusi aktuallıq kəsb edir. Məqalədə islamofobiyanın formalaşma mexanizmləri, fərdi və kollektiv psixologiyaya təsiri və multikultural mühitdə onun qarşısının alınması imkanları elmi yanaşma çərçivəsində araşdırılır.

## 2.Fobiya nədir: yaranma mexanizmləri, təsnifatı və sosial-psixoloji təsirləri

Fobiya lüğəvi mənada müəyyən bir obyektin, vəziyyətin və ya fəaliyyətin yaratdığı, fərdin özü tərəfindən də əsassız və ya həddindən artıq hesab edilən, irrasional, intensiv və davamlı qorxu kimi tərif olunur [Budak, 2009, s.291]. Fobiya, normal şəraitdə sağlam bir insanın qorxu hiss etməyəcəyi vəziyyət, obyekt və ya fəaliyyətə qarşı həddindən artıq qorxu reaksiyasının formalaşması və həmin stimuldan qaçınma davranışının nümayiş etdirilməsi ilə xarakterizə olunur.

Bir çox yunan və latın mənbələrində “fobiya” termini qorxuya səbəb olan obyekt və ya vəziyyətə uyğun olaraq adlandırılmışdır; məsələn, araxnofobiya

(hörümçək qorxusu), sosial fobiya, aqorafobiya (açıq məkan qorxusu) və s. [İsaac&Mataix-Cols, 2004, s.4]. Fobiyalar müstəqil psixopatoloji pozuntu kimi meydana çıxa biləcəyi kimi, müxtəlif psixi sağlamlıq problemlərinin tərkib hissəsi kimi də təzahür edə bilər.

İnsan duyğu və davranışlarını anlamaq və izah etmək məqsədilə müxtəlif psixoloji yanaşmalar formalaşdırılmışdır. Bu yanaşmalar arasında bioloji, davranışçı və psixoanalitik istiqamətlərin fobiyalara fərqli nəzəri prizmalardan yanaşdığı müşahidə olunur.

Bioloji yanaşmaya görə qorxu hissi instinktiv xarakter daşıyır. Qorxu və qaçınma refleksi insanlarda və bir çox digər heyvan növlərində mövcuddur. Bu mexanizmin əsas məqsədi orqanizmi təhlükələrdən qoruyaraq onun mövcudluğunu davam etdirməsini təmin etməkdir. Bir sıra etoloji və eksperimental psixologiya tədqiqatları yeni doğulanlarda qorxu reaksiyasının instinktiv şəkildə mövcud olduğunu göstərmişdir [Morgan, 2003, s.15]. Bioloji yanaşmada əsas diqqət qorxunun formalaşmasının qavrayış və yaddaş prosesləri ilə əlaqəsi kontekstində beynin anatomiyası və fiziologiyası üzərində cəmləşdirilir. Bu yanaşmaya əsasən müəyyən bioloji funksional mexanizmlər və neyrofizioloji proseslər təşviş (anksiyete), fobiya, panik atak və obsesiv davranışların yaranmasına səbəb ola bilər [Ronald, 2009, s.16].

Davranışçı yanaşmaya görə fobiyalar şərti refleks yolu ilə öyrənilmiş davranış formalarıdır. Fobiyaların şərtləndirilmiş qorxu reaksiyaları olduğu fikri John B.Vatson tərəfindən "Kiçik Albert" üzərində aparılmış klassik şərtlənmə təcrübəsinə əsaslanır. Vatson ağ siçanı yüksək və qəfil səs ilə eyni anda təqdim etməklə Kiçik Albertin ağ siçana qarşı qorxu reaksiyası inkişaf etdirməsinə səbəb olmuşdur [Watson, 1924, s.126]. Vatson digər eksperimentində əvvəllər zəng səsinə heç bir reaksiya verməyən heyvanlarda zəng səsi ilə birlikdə cəza stimulunun tətbiqi və bunun kifayət qədər müddət ərzində təkrarlanması nəticəsində, sonradan yalnız zəng səsini eşitdikdə belə qorxu kimi emosional və qaçma kimi ani davranış reaksiyalarının yarandığını müşahidə etmişdir [Watson, 1916, s.148].Vatson və digər davranışçı alimlər bu fenomeni "şərtləndirilmiş emosional reaksiya" kimi adlandırmışlar [Watson, 1924, s.8].

Psixoanalitik yanaşmaya görə isə fobiyalar basdırılmış istəklərin transformasiya edilməsi nəticəsində gün üzünə çıxmasından yaranır. Siqmund Freydə görə digər bir çox psixoloji pozuntular kimi fobiyalara da şüuraltı arzular səbəb olur. Şüuraltı arzular fərdin özü tərəfindən belə tam dərk edilməyən istəklərdir. Freydə görə uşaqlıq dövründə fərd cəmiyyətin əksəriyyəti tərəfindən uyğun sayılmayan cinsi və aqressiv duyğularını şüuraltına ötürür. Bu arzuları gizləmə prosesinə isə "basdırma" (repressiya) adı verilir. Basdırılmış şüuraltı arzular fobiyalar vasitəsilə ifadə olunur. Fərdin özündən belə dərin şəkildə gizlətdiyi bu arzular narahatlıq və həyəcan yaradır.

*“Metafizika” Journal*
*2026, vol 9, issue 2, serial 38, pp.468-481*

Narahatlıq və həyəcan bir şəkildə xaricə yönəldilməli olur. Beləliklə, fobiyaya xas olan qorxu, təşviş və stress xaricə buraxılır [Erin, 2000, s.32]. Freyd fobiyaları iki qrupa ayırmışdır: hörümçək və ilan qorxusu kimi instinktiv fobiyalar, həmçinin qapalı məkan və açıq məkan fobiyası kimi məkanla bağlı fobiyalar [Morgan, 2003, s.3].

Bəzi tədqiqatçılara görə, fobiyalar şərtləndirilmiş emosional təcrübələrdən və travmatik bir vəziyyətin bir hissəsi olmuş fobik obyektlərdən qaynaqlanır. Bu yanaşmaya əsasən, hər hansı bir obyektin fobik stimula çevrilmək potensialı bərabərdir. Digərlərinə görə isə müəyyən fobik reaksiyalar digər fərdlərin reaksiyalarını təqlid etmə və ya qavrayış vasitəsilə öyrənilmə yolu ilə əldə olunur [Ronald, 2009, s.16].

Qorxu hissi təhlükə anında qaçmaq və ya hücum kimi davranışlar vasitəsilə fərdin varlığını qorumasına kömək etdiyi üçün faydalıdır. Bununla belə, məntiqsiz, həddindən artıq və davamlı qorxu növü olan fobiyalar nəzarət altına alınmadıqda fərdin sosial və peşə həyatına mənfi təsir göstərə bilər. Fobiyaların müalicəsində dərman və terapiya yanaşmaları birlikdə tətbiq olunur. Fobiyanın müalicəsində istifadə olunan antidepressant tipli dərmanlar asılılıq yarada biləcəyi üçün uzun müddətli istifadəsi tövsiyə edilmir; bunun əvəzinə davranışçı terapiyalar daha çox üstünlük təşkil edir. Bu terapiyalarda fərd süni yaradılmış mühitdə qorxduğu obyekt və ya vəziyyətlə üzləşdirilir və fobik vəziyyətdə hiss etdiyi təşvişi tanımaq və onunla başa çıxmaq öyrədilir. Bununla belə, bəzi qorxu növlərində bu yanaşma hər zaman mümkün olmaya bilər. Belə hallarda qorxulan şeyi yalnız zehində canlandırmaq, real qarşılaşma qədər təsirli ola bilir. Davranışçı terapiyalar aqorafobiya, sosial fobiya, obsesiv-kompulsiv davranışlar, cinsi problemlər və alkoqolizm kimi xüsusi fobiyaların öhdəsindən gəlməkdə yüksək effektivlik göstərir.

Müxtəlif fobiyalar mövcud olsa da, fobiyalar ümumilikdə üç qrupa bölünə bilər:

**1.** Müəyyən obyektə yönəlmiş fobiyalar (heyvan və təbiət fobiyaları);

**2.** Müəyyən vəziyyətə yönəlmiş fobiyalar (açıq və ya qapalı məkan fobiyaları);

**3.** Müəyyən fenomenə yönəlmiş fobiyalar (İslamofobiya, sosial fobiya) və s.

Azərbaycanda multikultural və tolerant ictimai dəyərlər fobiyaların formalaşmasının qarşısını almaqda mühüm rol oynayır. Ölkədə müxtəlif etnik və dini qrupların dinc yanaşı yaşaması, dövlət səviyyəsində multikulturalizm siyasətinin həyata keçirilməsi və dini dözümlülüyün təşviqi fobik münasibətlərin və stereotiplərin sosial əsaslarını zəiflədir. Bu kontekst fobiyaların yalnız fərdi psixoloji deyil, həm də sosial-psixoloji analizinin vacibliyini göstərir.

## 3.İslamofobiya termini və islamofobiyanın tarixi

"İslamofobiya" termini "İslam" və yunan dilindəki "phobos" sözlərinin birləşməsindən yaranmışdır. Terminoloji olaraq, islamofobiya İslama qarşı qərəz və müsəlman azlıqlara qarşı göstərilən irqçilik kimi başa düşülə bilər [Rachel, 2008, s.10].

İslamofobiya qorxu hissi ilə xarakterizə olunur. Buna görə də, islamofobiyanın təsir istiqamətini anlamaq məqsədilə təşviş, narahatlıq, dəhşət və əsəbilik kimi qorxu ilə bağlı anlayışlardan istifadə olunur [Lee, Gibbons etc., 2009, s.94].

İslamofobiya, köhnə qorxu anlayışı üçün yaranmış yeni bir termindir. O, əsrlər boyunca davam edən müharibələr, Xaçlı yürüşləri və soyqırımlar vasitəsilə özünü göstərən dini dözümsüzlüyün bir formasıdır. İslamın çox qısa bir zaman ərzində geniş ərazilərə yayılması digər dinlərin İslamı özləri üçün təhlükə kimi qəbul etməsinə və onu dünya üçün bir problem kimi görməsinə səbəb olmuşdur [İgbal, 2010, s.575]. İslamofobik baxışa görə, İslam geniş mədəniyyətlər arasında heç bir dəyərə malik deyil. İslam Qərb mədəniyyətindən aşağı səviyyədədir və zorakı siyasətə əsaslanan ideologiyaya malikdir [Mohideen, 2008, s.73]. İslamofobiya ümumiyyətlə müsəlmanlara qarşı mənfi münasibətlər, ayrı-seçkilik, fiziki narahatlıq və mediada yayılan böhtanlar, eləcə də şifahi və fiziki təcavüz aktları ilə özünü göstərir.

Azərbaycanda isə islamofobiya fenomeni digər Qərb və dünya ölkələrinə nisbətən daha fərqli təzahür edir. Ölkədə müsəlman əhalisinin əksəriyyəti sülhsevər, multikultural və tolerant sosial mühitdə yaşayır. Dövlət səviyyəsində həyata keçirilən multikulturalizm siyasəti, dini və etnik müxtəlifliyin qorunması, həmçinin müxtəlif dini icmaların harmonik yanaşı yaşaması islamofobiyanın sosial təsirlərini zəiflədir. Buna baxmayaraq, qlobal mediada və internet məkanında yayılan stereotiplər, eləcə də bəzi ekstremist qrupların fəaliyyəti Azərbaycandakı gənc nəsildə yanlış qavrayışların formalaşmasına təsir edə bilər. Bu səbəbdən islamofobiyanın Azərbaycanda tədqiqi həm fərdi psixoloji, həm də sosial-psixoloji perspektivdən böyük əhəmiyyət kəsb edir.

İslamofobiya yeni yaranmış bir anlayış olsa da, islamofobik mövqelərin tarixi İslam dininin başlanğıc dövrünə qədər gedib çıxır. İslamın ortaya çıxması ilə birlikdə İslam qorxusundan irəli gələn düşmənçilik və aqressiv davranışlar müşahidə edilməyə başlanmışdır. Məkkə dövründə İslamın meydana çıxması ilə Məkkədəki müşrik və aparıcı şəxslər İslamı öz sosial statusları və iqtisadi maraqları üçün bir təhlükə kimi qiymətləndirmiş, İslamın sürətlə yayılması nəticəsində qorxu və narahatlıq hiss edərək müsəlmanlara qarşı hücum və təzyiqlərə əl atmışlar.

Orta əsrlərdə Qərb dünyasında İslam Xristianlığın yeni və saxta bir forması kimi qiymətləndirilmişdir [Said, 2003, s.26]. Leyden universitetinin professorları İslamın meydana çıxışını komplo nəzəriyyəsi ilə izah edirlər. Bu

nəzəriyyəyə görə, Katolik Kilsəsindən uzaqlaşdırılmış bir keşiş intiqam almaq məqsədilə Ərəb yarımadasına getmiş, orada Məhəmməd adlı birini tapmış və ona Yəhudi və Xristian ənənələri barədə məlumatlar vermiş, beləliklə də yeni bir din yaratmışdır [Canatan, 2007, s.21].

İslamofobiyanı gücləndirən digər bir hadisə Xaçlı yürüşləri və sonrasında həyata keçirilən İspaniya İnkvizisiyasıdır. Xaçlı yürüşlərinə əsgər toplamaq istəyən kilsə üzvlərinin apardığı təbliğatlar nəticəsində formalaşan İslamofobiya, əsasən xristianlığa qarşı təhlükə və təhdid iddialarına əsaslanırdı. Müxtəlif dövrlərdə müsəlmanlar və xristianlar arasındakı tanışlığın və qarşılıqlı əlaqələrin genişlənməsi ilə İslamofobiya bəzi hissələrdə zəifləsə də, son illərdə yenidən artan populyarlıq qazanmışdır [Uzun, 2012, s.17].

11 sentyabr 2001-ci ildə Amerika Birləşmiş Ştatlarında yerləşən Dünya Ticarət Mərkəzinə edilən hücumlardan sonra İslamofobiya tarixdə ən yüksək səviyyəyə çatmış və sürətlə inkişaf yoluna qədəm qoymuşdur.

Bununla yanaşı, müasir dövrdə Azərbaycan da qlobal islamofobiyanın təsirlərindən kənarda qalmamışdır. Xüsusilə sosial media və beynəlxalq xəbərlər vasitəsilə yayılan stereotiplər və nifrət nitqləri, Azərbaycanda yaşayan müsəlman icmaların ictimai və psixoloji vəziyyətinə təsir göstərməkdədir. Buna baxmayaraq, ölkəmizdə multikultural dəyərlər və dini dözümlülük siyasəti, islamofobik təzyiqlərin yayılmasının qarşısını almağa və cəmiyyət daxilində harmoniyanın qorunmasına kömək edir.

## 4.İslamofobiyanın səbəbləri

Dünyanın müxtəlif bölgələrində müsəlmanlara qarşı hücumlar və zorakılıq halları mövcud olmaqla birlikdə, İslamofobiya anlayışı daha çox Avropa və Amerikada İslam qorxusu və bunun nəticəsində müsəlmanlara qarşı yaranan düşmənçilik və aqressiv davranışlarla əlaqələndirilir. Bunu şərtləndirən bir sıra səbəblər vardır ki bunları aşağıdakı şəkildə sadalamaq mümükndür:

### 4.1.Mədəni və tarixi səbəblər

Qərb sivilizasiyasının çoxmədəniyyətliliyə və fərqliliklərə açıq olmayan, tək tipli quruluşu xarici düşmənçiliyə və İslamofobiyaya səbəb olur. Qərb sivilizasiyası, ərəb və fars kimi xalqları İslamın meydana çıxmasından və yayılmasından çox əvvəlki dövrlərdə də “aşağı, ikinci dərəcəli” toplumlar kimi qəbul edirdi. Məsələn, Antik Yunan və Roma dövründə ilk avropalılar, öz sərhədlərinə yaxın olan bu Asiya düşmənlərindən qorxur və onlara nifrət edirdilər. Qərblilər özlərini “mədəni” və “azadlıqsevər” insanlar kimi təqdim edərkən, öz kimliklərinin antitezi kimi perslər və digər asiyalıları despot və barbar insanlar hesab edirdilər [Uzun, 2012, s.23]. Qərb sivilizasiyası, bu tək tipli düşüncə tərzi ilə uzun illər ərzində yəhudi düşmənçiliyinə də yol açmışdır. Yəhudi əleyhçiliyi II Dünya müharibəsindən sonra yəhudi qırğınlarına zəmin yaratmışdır. Son illərdə isə antisemitizmin yerini İslam əleyhçiliyi almağa başlamışdır.

Osmanlı İmperiyasının uzun illər Avropada hökmran güc olaraq qalması avropalıların şüuraltında Türk və müsəlman qorxusu və düşmənliyinin formalaşmasına səbəb olmuşdur. Osmanlı İmperiyasının dağılması ilə sömürgəçi Avropa dövlətləri revanşist düşüncə ilə bəzi müsəlman torpaqlarını işğal edərək Osmanlının Avropadakı xristian əhaliyə etmədiyi zülm və assimilyasiya siyasətini tətbiq etmişlər. Müsəlman torpaqlarından çıxmalı olduqda isə öz ideologiyalarına yaxın idarəçilər təyin edərək, müsəlman cəmiyyətinin uzun illər anti-demokratik şəkildə idarə olunmasına yol açmışlar.

Yaxın keçmişdə, serb və xorvatların Bosniya və Hersoqovinada bosniyalı müsəlmanlara qarşı soyqırımı həyata keçirməsi və xüsusilə Osmanlı İmperiyası dövründə inşa edilmiş məscid, körpü və digər tarixi abidələri məhv etmələri avropalıların şüuraltında İslam qorxusu və düşmənliyinin hələ də davam etdiyini göstərir.

**4.2.Siyasi səbəblər**

Pew Forum tərəfindən hazırlanmış hesabatlara görə, bu gün Qərbi Avropada 17 milyon müsəlman yaşamaqdadır. Avropa Birliyinə olan miqrasiya axınları nəticəsində bu rəqəm hər il təxminən 1,7 milyon artmaqdadır. Avropa və Amerikada xristian əhalisinin çoxu yaşlı şəxslərdən ibarət olmaqla, əhali artım sürətinin aşağı olması, müsəlman əhalisinin isə miqrasiya, yüksək doğum göstəriciləri və xristianlıqdan islama keçid yolu ilə sürətlə artması avropalılar arasında qitənin "İslamlaşması" və xristianların öz ölkələrində müsəlmanlar qarşısında azlıq vəziyyətinə düşərək hakimiyyətlərini itirəcəkləri ilə bağlı narahatlıq və qorxu yaratmaqdadır. Bu narahatlıq və qorxular isə qəsdən islamofobiyanı təşviq edən təşəbbüslərin dəstəklənməsinə səbəb olur [Moreno, 2010, s.74].

**4.3.İqtisadi səbəblər**

Avropada xarici işçilərə olan tələbin azalması və son illərdə yaşanan iqtisadi böhranlar nəticəsində xristian əhalisinin işsizlik səviyyəsinin yüksəlməsi ilə yanaşı, müsəlmanlar da daxil olmaqla azlıqlara qarşı irqçi, təcridçi, nifrət və aqressiv davranışlar formalaşmış və islamofobik hadisələr müşahidə edilməyə başlamışdır.

Avropa və Amerikaya gedərək qeyri-peşəkar işçi kimi çalışan müsəlman fərdlərin ikinci və üçüncü nəsil övladları aldıqları keyfiyyətli təhsil nəticəsində mühüm dövlət vəzifələrinə gəlməyə, öz hüquqlarını daha fəal şəkildə tələb etməyə və iqtisadi baxımdan güclənməyə başlamışlar. Bu vəziyyətin iqtisadi, dini və siyasi cəhətdən meydan oxuma və potensial təhlükə kimi qəbul edilməsi islamofobik reaksiyalara səbəb ola bilər.

**4.4.Teoloji səbəblər**

Fərqli kimliklərə yönəlmiş teoloji baxışlar islamofobiyanın digər bir səbəbini təşkil edir. Fərqli dini görüşlərin məhv edilməsi lazım olduğu yönündə sərt xristianlıq təfsirləri islamofobiyaya yol açır. Dini bir düşüncə sistemi və

doktrin olaraq xristianlıq əlbəttə ki, bu mənfi inkişafın yalnızca məsuliyyətini daşıyır deyə qiymətləndirilə bilməz. Lakin, həm Bizans imperiyasında, həm də Qərbdə dini dözümsüzlüyün orta əsr cəmiyyətlərinin mühüm bir hissəsi olduğu bir faktdır [Tanton & Stroumsa, 1998, s. 357].

İslam əleyhinə çoxsaylı əsərlərin müəllifi olan Robert Spencer kimi yazıçılar Qurani-Kərimdə yer alan cihad ayələrini sübut kimi göstərərək, İslamın bir müharibə və zorakılıq dini olduğunu və İslam adı altında həyata keçirilən terror aktlarının mənbəyini Qurandakı cihad ayələrində tapdıqlarını iddia edən yazılar vasitəsilə islamofobiyanın və İslam əleyhinə mövqelərin formalaşmasına töhfə verirlər [Spencer, 2007, s.57, 67, 85].

Cihad Quranda açıq şəkildə həyat və imanla bağlı bütün sahələrdə çalışmaq, səy göstərmək mənasında istifadə olunur. Quranda və ümumi qəbulda cihadın mənası, orta bir fərdin həyatında zorakılığın hökm sürəcəyi fikrini dəstəkləmir. Quranda nəzərdə tutulan cihad, həyatın müxtəlif sahələrində yaxşı işlər görməyə çalışmaq və saf eqoizmə qarşı durmaqdır. Lakin tarixdə cihad bir çox şəxslər tərəfindən yalnız silahlı mübarizə kimi yanlış anlaşılıb.

Qurandakı cihad ayələri tədqiq edildikdə, onların dörd növ məna kəsb etdiyi müşahidə olunur. Bunlar: müsəlmanlara qarşı yönəlmiş hücumlar qarşısında aparılan müharibə mənasında mübarizə [Bəqərə surəsi, ayə-190], bəşəriyyətin ən böyük düşməni olaraq xarakterizə edilən Şeytanla mübarizə [Fatir surəsi, ayə-6], cəhalətlə mübarizə [Ali-imran, ayə-104] və fərdin öz nəfsi ilə mübarizə [Sad surəsi, ayə-26] aparmasıdır. Yəni fərdin ifrat və dağıdıcı mənfi duyğu və davranışlardan uzaq durmasıdır.

**4.5.Psixoloji səbəblər**

İslam və ya müsəlman anlayışlarının mediada davamlı olaraq terror, partlayış, zorakılıq kimi mənfi məfhum və hadisələrlə birlikdə qeyd edilməsi nəticəsində, insanlar bir müddət sonra klassik şərtlənməyə məruz qalırlar. Beləliklə, şərtləndirilmiş fərd İslam və müsəlman anlayışlarını eşitdikdə, təfəkkürünə həkk olunmuş qan, zorakılıq, partlayış kimi hadisələri xatırlayır; bu da İslama və müsəlmanlara qarşı qorxu və qəzəb hisslərinin formalaşmasına səbəb olur.

Qorxuların bir qismi ön mühakimə ilə əlaqədardır. Aparılan tədqiqatlarda irq, cinsiyyət, siyasi meyil kimi demoqrafik dəyişənlərin ön mühakiməli yanaşmalarla bağlı olduğu müşahidə edilmişdir [Lee, Gibbons etc., 2009, s.94]. Beləliklə, islamofobiyanın formalaşmasında kifayət qədər məlumat sahibi olmadan qabaqcadan hökm çıxarma şəklindəki ön mühakiməli tutumların təsirli olduğu görünməkdədir.

**4.6.Dini lider və siyasətçi təsiri**

İslamofobiyanın yaranma səbəblərindən biri də insanların tanıdığı və etibar etdiyi siyasətçilərin, yazıçıların və din xadimlərinin İslamı terrorla

əlaqələndirən ifadələr işlətmələridir. Məsələn, Roma Papası XVI Benedikt müsəlman liderlərə ünvanladığı müraciətində terrorun dayandırılmasına kömək etmək üçün müsəlman liderlərin üzərinə vəzifə düşdüyünü bildirmişdir. Papa terrorun qarşısının alınmasında müsəlman liderlərdən yardım istəyərkən, terroru yayanların məhz müsəlmanlar olduğuna işarə edir və terrora səbəb olan digər amillərə bəraət qazandırırdı [Mohideen & Mohideen, 2008, s.74].

İslamofobiyanın müsəlmanlar üzərində sosioloji, psixoloji və iqtisadi cəhətdən mənfi təsirləri olur. Müsəlmanlar siyasətdə, hökumət strukturlarında və yüksək inzibati vəzifələrdə təmsil olunmaqdan kənarlaşdırılır, həmçinin iş tapmaq, təhsil və səhiyyə xidmətlərindən yararlanmaq məsələlərində də ayrı-seçkiliyə məruz qalırlar. Gündəlik həyatda müsəlmanlar şifahi təhqirlərə, fiziki hücumlara və mülkiyyətə zərər vuran hərəkətlərə hədəf olurlar [Aslan, 2009, s.6].

**5.Multikultural dəyərlər və islamofobiya**

Azərbaycan dünyəvi ölkə hesab olunsa da əhalinin böyük əksəriyyəti müsəlmandır. Buna baxmayaraq ölkədə müxtəlif dinlərə mənsub olan şəxslər mehriban və dinc şəraitdə yaşamaqdadır. Bir çox ölkələrdən fərqli olaraq Azərbaycanda istər islami məzhəblər, istərsə də digər dini icmalar arasında hər-hansı ziddiyyət, nifaq elementləri yoxdur. Dünyada xüsusilə Qərbdə islamofobiyanın genişləndiyi, bir çox islam ölkəsinin bu mövzuda mənfi obraz rolunda çıxış etdiyi dövrdə müsəlmanların çoxluq təşkil etdiyi Azərbaycan nümunə rolunda çıxış edir. Xüsusən də Azərbaycandakı multikulturalizm modeli bu mənfi meyllərə qarşı mühüm bir antitezadır. Qərb sivilizasiyasının "tək tipli" quruluşundan fərqli olaraq, Azərbaycanın dövlət siyasəti kimi qəbul etdiyi multikulturalizm, islamofobiyanın təməlində dayanan "başqalaşdırma" probleminin həlli kimi göstərilə bilər. Azərbaycanda müsəlman, yəhudi və xristian icmalarının dinc yanaşı yaşaması, mətndə qeyd olunan "mədəni və tarixi qorxuların" əsassızlığını sübut edir.

Bosniya nümunəsinə paralel olaraq, Azərbaycanın Qarabağ münaqişəsi dövründə üzləşdiyi vəziyyət də islamofobiyanın siyasi təzahürüdür. Ermənistanın işğal etdiyi ərazilərdə məscidləri, qəbiristanlıqları və tarixi abidələri dağıtması, eləcə də bu hərəkətlərin bəzi Qərb dairələri tərəfindən səssiz qarşılanması, islamofobiyanın "mədəni irsi yox etmə" mərhələsinin bir nümunəsidir.

Azərbaycanın mütəmadi olaraq "Beynəlxalq İslamofobiya ilə mübarizə günü"nə həsr olunmuş konfranslara ev sahibliyi etməsi, ölkənin bu problemin həllində qlobal akademik və siyasi mərkəzə çevrildiyini göstərir.

"İslamofobiyanın regional təzahürlərini nəzərdən keçirdikdə, Azərbaycanın həm bu təhdidlə mübarizədəki rolu, həm də onun qurbanı olduğu faktı diqqət çəkir. Belə ki, 30 ilə yaxın davam edən Qarabağ münaqişəsi zamanı müsəlman dini və mədəni irsinin sistemli şəkildə məhv edilməsi, əslində islamofobiyanın

regional miqyasda vandalizm formasıdır. Bununla belə, Azərbaycan dövləti öz daxili siyasətində fərqli dinlərin və mədəniyyətlərin dialoqunu təşviq edərək, Qərbdəki “müsəlman qorxusu” stereotipini daxildən sarsıdır. Bu, islamofobiyanın yalnız coğrafi deyil, həm də ideoloji müstəvidə qarşısının alınması üçün “Azərbaycanın multikulturalizm modeli”nin qlobal əhəmiyyətini ortaya qoyur.

**6.Nəticə**

Aparılan tədqiqat və nəzəri təhlillər göstərir ki, islamofobiya müasir dövrün sadəcə emosional qorxu reaksiyası deyil, kökləri tarixin müxtəlif qatlarına uzanan, siyasi, iqtisadi və ideoloji amillərlə sistemli şəkildə qidalandırılan çoxölçülü bir fenomendir. Psixoloji müstəvidə bu fenomenin formalaşmasında “klassik şərtlənmə” mexanizmlərinin rolu danılmazdır; medianın və müəyyən siyasi aktorların İslamı davamlı olaraq destruktiv obrazlarla (terror, zorakılıq, radikalizm) assosiasiya etməsi, kütləvi şüurda irrasional bir “təhlükə qavrayışı” yaratmışdır. Bu proses fərdlərdə fərqli olanı “başqalaşdırma” tendensiyasını gücləndirərək, sosial təcrid və diskriminasiyaya elmi-nəzəri bəraət qazandırır.

Qlobal mənzərədə islamofobiyanın artdığı bir dövrdə Azərbaycanın təqdim etdiyi ictimai-siyasi model bu problemin həlli üçün mühüm bir paradiqmadır. Azərbaycanın multikulturalizm siyasəti göstərir ki, dini müxtəliflik bir təhdid deyil, cəmiyyətin dayanıqlığını artıran strateji resursdur. Ölkədə formalaşmış tolerantlıq mühiti Qərbdəki “tək tipli sivilizasiya” anlayışına qarşı güclü bir alternativ təşkil edir. Bununla belə, Azərbaycan həm də islamofobiyanın ən ağır fəsadları ilə üzləşmiş bir ölkədir. Ermənistanın vaxtilə işğal etdiyi ərazilərdə məscidlərin və islam mədəniyyət abidələrinin sistemli şəkildə dağıdılması, təhqir edilməsi və mənimsənilməsi bu fenomenin sadəcə “qorxu” deyil, həm də “mədəni vandalizm” və “vandalist islamofobiya” səviyyəsinə yüksəldiyini sübut edir.

Yekun olaraq qeyd etmək olar ki, islamofobiya ilə mübarizə yalnız hüquqi müstəvidə deyil, həm də dərin psixoloji və maarifləndirici islahatlarla aparılmalıdır. Azərbaycanın multikulturalizm modeli qlobal səviyyədə təşviq edilməli, xüsusilə gənc nəsillər arasında mənfi stereotiplərin qırılması üçün “inter-mədəni dialoq” platformaları genişləndirilməlidir. Beynəlxalq birliyin bu məsələdə ikili standartlardan imtina etməsi və Azərbaycanın üzləşdiyi dini-mədəni irsin məhv edilməsi faktlarına ədalətli hüquqi qiymət verməsi qlobal təhlükəsizliyin və sivilizasiyalararası sülhün təmini üçün zəruri şərtdir.

## 7.ƏDƏBİYYAT

1. Aslan, A. (2009). *Islamophobia in Australia*. Agora Press.
2. Bloul, R. A. D. (2008). Anti-discrimination laws, Islamophobia, and ethnicization of Muslim identities in Europe and Australia. *Journal of Muslim Minority Affairs, 28*(1), pp.1–11.
3. Budak, S. (2009). *Psikoloji sözlüğü*. Bilim ve Sanat Yayınları.
4. Canatan, K. (2007). İslamofobi ve anti-İslamizm: Kavramsal ve tarihsel bir yaklaşım. In K. Canatan & Ö. Hıdır (Ed.), *Batı dünyasında İslamofobi ve anti-İslamizm*. FCR Yayınları.
5. Doctor, R. M. & Kahn, A. P. & Adamec, C. (2009). *The encyclopedia of phobias, fears, and anxieties*. Infobase Publishing.
6. Hovanec, E. M. (2000). *Everything you need to know about phobias*. The Rosen Publishing Group.
7. Iqbal, Z. (2010). Understanding Islamophobia: Conceptualizing and measuring the construct. *European Journal of Social Sciences*, *13*(4), pp.574–590.
8. Lee, S. A. & Gibbons, J. A. & Thompson, J. M. & Timani, H. S. (2009). The Islamophobia scale: Instrument development and initial validation. *The International Journal for the Psychology of Religion*, 19, pp.92–105.
9. Marks, I. & Mataix-Cols, D. (2004). Diagnosis and classification of phobias. In M. Maj & H. S. Akiskal & J. J. López-Ibor Jr. & A. Okasha (Ed.), *Phobias*. John Wiley & Sons.
10. Mohideen, H. & Mohideen, S. (n.d.). The language of Islamophobia in internet articles. *Intellectual Discourse*, *16*(1), pp.73–83.
11. Moreno, L. (2010). Fearing the future: Islamophobia in Central Europe. *The New Presence*, 4, 73-80.
12. Morgan, S. (2003). *Phobia: A reassessment*. Karnac Books.
13. Said, E. W. (2003). *Orientalism*. Penguin Books.
14. Spencer, R. (2007). *A religion of peace?: Why Christianity is and Islam isn't*. Regnery Publishing.
15. Stanton, G. N. & Stroumsa, G. G. (1998). *Tolerance and intolerance in early Judaism and Christianity*. Cambridge University Press.
16. Uzun, N. (2012). *Avrupa'da İslamofobi*. Pınar Yayınları.
17. Watson, J. B. (1916). The place of the conditioned reflex in psychology. *Psychological Review*, 23, pp.89–116.
18. Watson, J. B. (1924). *Behaviorism*. Transaction Publishers.

## REFERENCES

**1.** Aslan, A. (2009). *Islamophobia in Australia*. Agora Press. (in English)
**2.** Bloul, R. A. D. (2008). Anti-discrimination laws, Islamophobia, and ethnicization of Muslim identities in Europe and Australia. *Journal of Muslim Minority Affairs, 28*(1), 1–11. (in English)
**3.** Budak, S. (2009). *Dictionary of Psychology*. Bilim ve Sanat Publishing. (in Turkish)
**4.** Canatan, K. (2007). Islamophobia and anti-Islamism: A conceptual and historical approach. In K. Canatan & O. Hidir (Eds.), *Islamophobia and Anti-Islamism in the Western World*. FCR Publishing. (in Turkish)
**5.** Doctor, R. M., Kahn, A. P., & Adamec, C. (2009). *The Encyclopedia of Phobias, Fears, and Anxieties*. Infobase Publishing. (in English)
**6.** Hovanec, E. M. (2000). *Everything You Need to Know about Phobias*. The Rosen Publishing Group. (in English)
**7.** Iqbal, Z. (2010). Understanding Islamophobia: Conceptualizing and measuring the construct. *European Journal of Social Sciences, 13*(4), 574–590. (in English)
**8.** Lee, S. A., Gibbons, J. A., Thompson, J. M., & Timani, H. S. (2009). The Islamophobia scale: Instrument development and initial validation. *The International Journal for the Psychology of Religion*, 19, 92–105. (in English)
**9.** Marks, I., & Mataix-Cols, D. (2004). Diagnosis and classification of phobias. In M. Maj, H. S. Akiskal, J. J. Lopez-Ibor Jr., & A. Okasha (Eds.), *Phobias*. John Wiley & Sons. (in English)
**10.** Mohideen, H., & Mohideen, S. (n.d.). The language of Islamophobia in internet articles. *Intellectual Discourse, 16*(1), 73–83. (in English)
**11.** Moreno, L. (2010). Fearing the future: Islamophobia in Central Europe. *The New Presence*, 4, 73–80. (in English)
**12.** Morgan, S. (2003). *Phobia: A Reassessment*. Karnac Books. (in English)
**13.** Said, E. W. (2003). *Orientalism*. Penguin Books. (in English)
**14.** Spencer, R. (2007). *A Religion of Peace?: Why Christianity Is and Islam Isn’t*. Regnery Publishing. (in English)
**15.** Stanton, G. N., & Stroumsa, G. G. (1998). *Tolerance and Intolerance in Early Judaism and Christianity*. Cambridge University Press. (in English)
**16.** Uzun, N. (2012). *Islamophobia in Europe*. Pinar Publishing. (in Turkish)
**17.** Watson, J. B. (1916). The place of the conditioned reflex in psychology. *Psychological Review*, 23, 89–116. (in English)
**18.** Watson, J. B. (1924). *Behaviorism*. Transaction Publishers. (in English)